**UOT 1(091)**
**DOİ:**

# CƏNUBİ AZƏRBAYCANDA MƏŞRUTƏ İNQİLABI VƏ Ş.M.XİYABANİ HƏRƏKATI DÖVRÜNDƏ İCTİMAİ-FƏLSƏFİ FİKRİN İNKİŞAFI

**Nicat Məmmədov**
fəlsəfə üzrə fəlsəfə doktoru, dosent
AMEA Fəlsəfə və Sosiologiya İnstitutu, **Azərbaycan**
nicatmk@mail.ru
https://orcid.org-0000–0003–2509–1159

**Xülasə.** Təqdim olunmuş məqalədə Cənubi Azərbaycanın fəlsəfi və ictimai-siyasi fikir tarixində XX əsrin əvvəllərinin xüsusi mərhələ təşkil etməsi problemi gündəmə gətirilir. Cənubi Azərbaycanın tarixində XX əsrin ən keşməkeşli dövrlərdən biri olması və bu əsrdə burada bir neçə dünya əhəmiyyətli hadisənin baş verməsi, İrandakı bütün azadlıq hərəkatlarının öz başlanğıcını məhz bu dövlətin tərkibində olan Azərbaycandan götürməsi məsələsi tədqiq olunur.

**Məqsəd:** Məşrutə inqilabı və Ş.M.Xiyabani hərəkatı dövründə Cənubi Azərbaycanda ictimai-fəlsəfi fikrin inkişafını araşdırmaq.

**Metodologiya:** Müqayisəli - sistemli yanaşma, tarixilik metodu.

**Elmi yenilik:** Cənubi Azərbaycanda ictimai-fəlsəfi fikrin inkişafına Məşrutə inqilabının və Ş.M.Xiyabani hərəkatının təsirinin tədqiqi.

**Acar sözlər:** fəlsəfi, ictimai-siyasi, Cənubi Azərbaycan, Məşrutə, düşüncə, milli-mənəvi, özünüdərk, demokratik.

## Giriş / *Introduction*

Cənubi Azərbaycan fəlsəfi və ictimai-siyasi fikir tarixində XX əsrin əvvəlləri xüsusi mərhələ təşkil edir. Cənubi AzərbaycanCəmilın tarixində XX əsr ən keşməkeşli dövrlərdən biridir. Cənubi Azərbaycanda bu əsrdə bir neçə dünya əhəmiyyətli hadisə baş vermiş, İrandakı bütün azadlıq hərəkatları başlanğıcını məhz bu ölkənin tərkibində olan Azərbaycandan götürmüşdür. Səttarxanın lideri olduğu Məşrutə inqilabı (1906-1911), Ş.M.Xiyabani hərəkatı (1919-1920), S.C.Pişəvərinin rəhbərliyi ilə qurulan Azərbaycan Demokratik Hökuməti (1945-1946), nəhayət, 1978-ci il İran İslam İnqilabı Azərbaycanın ictimai-siyasi həyatında baş verən bir sıra hadisələr ictimai-fəlsəfi fikrin istiqamətinin nəzərəçarpacaq dərəcədə dəyişməsinə səbəb oldu. Məhz bu hərəkat və inqilablar sayəsində ictimai fikirdə, ədəbiyyatda, xüsusilə poeziyada milli şüurun inikası özünü qabarıq şəkildə göstərməyə, milli kimlik uğrunda mübarizə məsələsi o dövrün bütün yaradıcılıq sahələrinin əsas mövzuları arasında əhəmiyyətli yer tutmağa başladı. Məhz bu səbəbdən də XX əsrin ortalarına qədər İranda "müsəlman milləti" deyilən bir məfhum daha çox işlənmiş, azərbaycanlılar da özlərini iranlı və müsəlman milləti hesab etmişlər. Ona görə də onların müsəlman millətinin kimliyi uğrunda mübarizəsini, əslində, Azərbaycan millətinin milli kimlik uğrunda mübarizəsi kimi qəbul etmək lazımdır.

## Əsas hissə / *Main Part*

XX əsrin əvvəllərində Cənubi Azərbaycanda fəlsəfi, ictimai-siyasi, ədəbi-bədii, nəzəri-estetik düşüncə tərzi öz fərqli çalarları ilə diqqət çəkir.

Məlum olduğu kimi, Cənubi Azərbaycan Gülüstan (1813) və Türkmənçay (1828) müqavilələrindən sonra İranın tərkibində qalmış və bu günə qədər müstəqil dövlət quruluşuna malik deyil. Cənubi azərbaycanlılar türk olsalar belə, İran vətəndaşları olduqlarından özlərini daha çox iranlı hesab edirlər. Elmi ədəbiyyatda qeyd olunduğu kimi, "İranın tərkibində yaşayan azərbaycanlıların bir millət kimi formalaşması XIX əsrin sonu, XX əsrin əvvəllərində başlamış, XX əsrin 20-ci illərinin ortalarına qədər sosial-iqtisadi proseslərin təbii axarının nəticəsi olaraq, ölkədə hakim millətçilik siyasətinin formalaşmadığı bir şəraitdə davam etmişdir" [1, s. 176]. İngilislərin himayəsi ilə milliyyətcə fars olan Rza xanın hakimiyyətə gəlib türk mənşəli Qacarların hakimiyyətinə son qoymasından sonra vəziyyət dəyişmiş, milli zülm siyasəti güclənmiş, Azərbaycan türklərinə qarşı

zorakı assimilyasiya siyasəti yeridilərək azərbaycanlılar əzilən millət vəziyyətinə salınmışdır. “Əsrin əvvəllərində, Məşrutə hərəkatı dövründə İranda azərbaycanlılara verilən nisbi azadlıqlar Rza şah Pəhləvi hakimiyyəti illərində tamamilə onların əlindən alınmış, Azərbaycan dilində mətbuat orqanlarının çapı tam qadağan olunmaqla bərabər, Azərbaycan dilində tamaşalar göstərmək, məktəblərdə ana dilində danışmaq da qadağan edilmiş, hətta türk mənşəli toponimlərin adlarının dəyişdirilməsi kütləvi hal almış, ən acınacaqlısı, hətta yeni doğulan körpələrə Azərbaycan adlarının verilməsinə maneələr törədilmişdir” [2, s. 94].

Belə bir qarışıq zamanda, təbii ki, ictimai-fəlsəfi fikrin əsas təmsilçisi olan anadilli ədəbiyyatın da inkişafına ciddi əngəllər yaradılmış, buna baxmayaraq ədəbiyyat, ədəbiyyatın ən aktiv qolu olan poeziya həm Azərbaycan, həm də fars dilində inkişaf etmiş, milli kimlik və milli şüur məsələsi, əsasən, poeziya vasitəsilə inkişaf etdirilərək unudulmağa qoyulmamışdır.

Rusiyanın və Avropanın tarixində bir sıra dəyişikliklərin yaranmasına səbəb olan 1905-ci il Birinci Rus İnqilabı Şərq dövlətlərində, xüsusilə İranda da azadlıq uğrunda mübarizə ilə yanaşı, ictimai fikirdə və ədəbiyyatda milli kimlik məsələsinin ön plana çıxmasında mühüm rol oynadı. Bu inqilabın aşkar təsiri altında İranda baş vermiş və əsas liderləri azərbaycanlılar olan Məşrutə inqilabı (1905-1911) İranın tərkib hissəsi olan Güney Azərbaycanda da əhalinin siyasi fəallığının artmasına, ölkədə demokratik ideya və fikirlərə marağın kifayət qədər güclənməsinə səbəb oldu. Məşrutə hərəkatının başlanması ərəfəsində Tehranda demokratik düşüncəli, əsasən, qərbyönümlü ziyalıların təşəbbüsü ilə “İnqilab komitəsi”, “Maarif əncüməni”, Təbrizdə “İctimaiyyun-amiyun” (“Sosial-demokrat”) kimi ictimai təşkilatlar (1906) yaradıldı. Bu təşkilatların başlıca məqsədi həmin illərdə mövcud quruluşa, şahlıq rejiminə qarşı artmaqda olan narazılığı vahid bir məcraya yönəltmək, monarxist bir ölkədə demokratik qanunlara söykənən müəyyən islahatlar aparmaqdan ibarət idi. Mərhələ-mərhələ şiddətlənən, hakimiyyətin dəyişilməsi məsələsini gündəmə gətirməsə də, qanunların təzələnib zamanın və insanların vəziyyətinə uyğun bir şəklə gətirilməsi uğrunda mübarizənin məntiqi nəticəsi kimi meydana çıxıb adı tarixin səhifələrinə qızıl xətlə yazılan Məşrutə inqilabından çəkinərək məcburiyyət qarşısında qalan Müzəffərəddin şahın Konstitusiyanın (Qanuni-əsası) qəbul edilməsi və Şura Məclisinin (Parlament) çağırılması barədə fərmanlar verməsi İranın və Cənubi Azərbaycanın tarixində o dövrə qədər görünməmiş, analoqu olmayan hadisələr idi. Həmin illərdə Azərbaycanı idarə edən Müzəffərəddin şahın oğlu, vəliəhd Məhəmmədəli Mirzə fərmanların Azərbaycanda icra olunmasına mane olsa da, istəyinə çata bilmədi. Məhz Məhəmmədəli Mirzənin bu anti-insani və anti-humanist addımlar atması hərəkatın Təbrizdən başlayaraq, yenidən baş qaldırmasına, kütləvi hal almasına və bütün İrana yayılmasına səbəb oldu. Çox keçmədi ki, lideri Səttarxan olan Təbriz məşrutəçiləri Məhəmmədəli Mirzə və onun havadarlarına tarixi bir dərs verərək, qadağaları aradan qaldırmağa müvəffəq oldular və Məşrutə inqilabının qələbə sorağını bütün İrana və dünyaya yaymağa müvəffəq oldular.

Müzəffərəddin şahın ölümündən sonra (1906) şahlıq taxtına oturan Məhəmmədəli şah Qacarın ilk işlərindən biri atasının xalqın tələbi ilə verdiyi fərmanları ləğv edib Məşrutəni beləkdə ikən boğmaq oldu. Onun əmri ilə Tehranda məclis topa tutuldu, Məlikül-Mütəkəllim kimi vətənpərvər, demokratik düşüncəli ziyalıların bir çoxu ya faciəli şəkildə öldürüldü, ya da vətənini tərk etməyə məcbur oldu. Yeni, uğursuz, haqqında heç də yaxşı fikirlərin olmadığı Məhəmmədəli şahın insan adına ləkə gətirən hərəkətlərindən sonra qəhrəman Azərbaycan xalqı yenidən ayağa qalxaraq Səttarxanın (Sərdari-milli) və Bağırxanın (Salari-milli) rəhbərliyi ilə qan içində çabalamaqda olan Məşrutəni qanları və canları bahasına qorudu, şahı və onun ətrafını iflic vəziyyətə saldı.

Məlum olduğu kimi, o dövr ictimai-siyasi və fəlsəfi fikrin əsas təmsilçisi olan ədəbiyyat, bədii söz nə qədər fərdlər tərəfindən yaradılsa da, cəmiyyətin, toplumun həyatında, əxlaq və mənəviyyatında baş vermiş hadisələr ictimai-ədəbi fikirdə əksini tapır və real həyatda baş verən hadisələrsiz ötüşə bilmirdi. Bu mənada Məşrutə dövründə Cənubi Azərbaycanda yaranmış ədəbiyyatın ictimai-fəlsəfi təhlili bizi belə bir mənzərə ilə qarşılaşdırır ki, “Məşrutə dövründə ədəbiyyat xalq hərəkatının salnaməsi, dövrün bədii təfəkkürünün inkişafının, ictimai hiss və həyəcanlarının güzgüsü olmuşdur” [3, s. 35].

Məhz bu baxımdan Məşrutə dövrünün Cənubi Azərbaycan ictimai-siyasi fikri bədii ədəbiyyatın əksər nümunələri olan poetik forma və janrlarda yaranmışdır. Məşrutə inqilabının ən radikal qüvvəsi

olan Cənubi azərbaycanlılar, xüsusilə Təbriz camaatı arasında inqilabi poeziya çox populyar idi. Bu illərdə istər Azərbaycan dilində, isitərsə də fars dilində meydana gələn poetik əsərlərin əsas mövzularını yeni ictimai-siyasi baxışlar, milli dəyərlərin təbliği, millətə səadət və insansevərlik, vətənpərvərlik, azadlıq uğrunda mübarizəyə çağırış motivləri təşkil edir. Həmin illərdə yazıb-yaratmış H.R.Sərraf, S.Ə.Gilani, S.Səlmasi, M.C.Məşuf, M.Ə.Xazin, B.Abbaszadə, M.M.Şəbüstəri və başqalarının yaradıcılıqlarında yuxarıda qeyd etdiklərimiz çox aydın şəkildə öz dolğun fəlsəfi-poetik əksini tapmışdır.

Akademik Mirzə İbrahimovun qeyd etdiyi kimi, “XIX əsrin sonlarına, XX əsrin əvvəllərinə qədər bir sıra müsəlman ölkələrində xalqların milli mənsubiyyəti ilə dini əqidələri eyniləşdirilir, “islam milləti” kimi ifadə işlənirdi” [4, s. 14] ki, Cənubi Azərbaycanda da vəziyyət qeyd olunduğu kimi idi. Təbii ki, özlərini iranlı, İran dövlətinin vətəndaşı hesab edən şairlər milli kimlik baxımından iranlı kimi çıxış edir, milli kimliyin komponentləri onların yaradıcılığında da iranlı, İran vətəndaşı olaraq əks olunurdu. Bu əsərlərin əksəriyyətində din, əqidə, adət-ənənə, tarixi keçmişin xatırlanması müşahidə olunsa da, əsas mövzulardan ən başlıcasını azadlıq idealı, vaxtilə şöhrətli bir ölkə olan İranın hazırda çətin durumda olması və ümumi şəkildə “islam milləti” kimi təqdim olunan İran azərbaycanlılarının milli kimlik komponentlərinin tərənnümü təşkil edirdi.

İranın ozamankı ictimai-siyasi vəziyyətində və cəmiyyətdə gedən mübarizələr fonunda demokratik inqilabi ruhu gücləndirən, xalqın çoxdankı arzularını ifadə edən, onun azadlıqsevər bir xalq olduğunu, lakin hələ də qəflətdə qaldığını xatırladan şair şeirin ilk misraları ilə oxucusuna ərk və bir qədər də hiddətlə müraciət edərək deyir:

Ey milləti-İslam, oyan, vəqti-səhərdir,
Bəsdir,bu qədər yatma, çürürsən, nə xəbərdir!
Dur, vəqti-səhərdir! [5, s. 75]

Diqqət edilərsə, bu misralarla H.R.Sərraf təkcə vətəndaşları olan Cənubi azərbaycanlılara deyil, bütün dindaşlarına, Məhəmməd ümmətinə, İslam millətinə, ümumilikdə müsəlmanlara üz tutur.

Xatırlatmaq yerinə düşərdi ki, şeirin yazıldığı dövrdə İranda yaşayan azərbaycanlılar özlərini ayrıca, əlahiddə millət kimi yox, İranın vətəndaşı və iran milləti, daha geniş mənada müsəlman milləti hesab edirdilər. Bu mənada H.R.Sərrafın azərbaycanlılara deyil, bütün müsəlman millətinə xitabı tamamilə başadüşüləndir və əslində, bu müraciətdə müraciət obyekti kimi göstərilən daha çox haqqı tapdanan, Tehranın mərkəzi hökumətindən asılı vəziyyətdə olan Azərbaycandır. “Qafil düşübən dinini dünyaya satıbsan!” nidası ilə həmvətən və həmdinlərini qəflət yuxusundan ayıldıb öz hüquqlarını müdafiə etməyə çağıran böyük humanist bəzən canından artıq sevdiyi milləti ittiham etməkdən belə çəkinmir, onun yatmağının ölümdən də betər olduğunu alovlu sətirlərlə bəyan edir:

Yatmaq belə olmaz, bu, ölümdən də betərdir,
Dur, vəqti-səhərdir! [5, s. 75]

Göründüyü kimi, millətinin halına acıyan, vətəndaşların təcəddüd, inkişaf əsri olan XX əsrdən, əsrin əvvəllərində biri digərini əvəz edən dünyəvi hadisələrdən ibrət götürmədiyini, hələ də qəflət yuxusundan oyanmağa səy göstərmədiyini görən şair onları seçim qarşısında qoyur. Açıq kontekstdə onlara bildirir ki, düşdüyün əsarət, gerilik, korazehinlikdən, maarif və mərifətsizlikdən qurtarmaq üçün qapıldığın səfalət yuxusundan ayılmasan, xaricilər bir yana, həmsayələrin də səni tapdalamaqdan çəkinməz. Haqlı olduğunu bilə-bilə, zülmün qarşısında qolubağlı qul kimi boyun burduqca, həqiqətdən uzaqlaşıb xəyallara qapıldıqca, birləşib zalıma qarşı üsyan etmədikcə, aqibətin bugünkündən daha pis, vəziyyətin pis olacaq. Çünki zaman sən düşündüyün zaman deyil. Dünyanın əksər xalqları ayağa qalxaraq, özgürlüyünü tələb etdiyi bir vaxtda “hamı yatmışların oyanıb öz eybini qandığı belə bir tarixi məqamda hər kimsə yatsa, qanı hədərdir”.

Şair çox yaxşı görür, hiss edir və başa düşür ki, müraciət etdiyi kütlə hələ də oyanmaq, haqqını tələb etmək üçün mübarizə meydanına atılmaq fikrində deyil. Odur ki, əsəbi bir tonda, bir qədər də həsədlə milli kimlik, azadlıq uğrunda mücadilə edən digər millətləri, ad çəkməsə də, daha doğru anlamda avropalıları onlara nümunə göstərir və beləliklə, əvvəlki çağırış indi sərt bir sarkazmla əvəzlənir:

Sən yat, qoy olar dursun, olar çünki bəşərdir! [6, s. 75]

Düşünürük ki, müəllifin milli oyanışa xidmət göstərmiş bu şeiri milləti qəflətdən həqiqətən ayıltmaq istəyən H.R.Sərrafdan sonrakı Cənubi Azərbaycan şairləri üçün də bir nümunə olmuş, onlar qələmin və sözün gücü ilə millətə, milli şüurun oyanışına və milli kimliyin dərkinə xidmət etməyi əsas ictimai məramları hesab etmişlər.

Məşrutə dövrü ictimai-fəlsəfi fikrinin əsas təbliğatçısı olan ədəbiyyatın bir sıra poetik nümunələri, milli dirçəlişin, xalqın arzu və istəklərinin ifadəçisi olduğundan, milli ruhlu, inqilabi mövzulu şeirlər camaat içərisində tez yayılır, bir çox hallarda müəlliflərinin adları belə, xalqın yadından çıxır, onlar az qala folklor nümunələri hesab olunurdu. Belə poetik nümunələrin əksəriyyətində Səttarxan və xalq azadlığı tərənnüm olunur, mürtəcelər lağa qoyulur, lənətlə yad edilirdilər.

Müəllifi unudulmuş belə şeirlərin birində oxuyuruq:

Səttarxan geyib qərəni,
Bağlayıb bəndi-bərəni,
Qoymur kənardan gələni,
Bərəkallah, qəllac oğlan,
Məşrutəyə fərrac oğlan! [7, s. 47 ].

Dövrün məhz belə poetik nümunələrində inqilabi əhvali-ruhiyyə daha qabarıq olub, şahlıq-üsuli idarəsinə qəzəb, qanlı döyüşlərdən qorxmamaq çağırışları ilə fərqlənir. Bu illərdə meydana çıxan folklor nümunələrində Səttarxan vəsf olunduğu halda, Məhəmmədəli şah və Azərbaycana ögey gözlə baxan Tehran hakimiyyəti kəskin tənqid edilir və eyni zamanda, millətin öz milli kimliyinə sahib çıxmasının vacibliyi fikri də geniş təbliğ olunur.

Verdiyi sözə əməl etmək, söz qəhrəmanı yox, əməl qəhrəmanı olmaq Azərbaycan xalqına xas olan əsas milli keyfiyyətlərdəndir ki, bu məsələ ədəbiyyatda da öz əksini tapırdı. Dövrün tanınmış mücahid şairlərindən olan və “Səttarxan hərəkatının müğənnisi” hesab edilən Mir Əbdülhüseyn Xazin (1873-1918) “Mücahid” adlı şeirində yazırdı:

Quru söz ilə vəfa toxumun əkmə, yersiz olur,
Bu toxuma qan ilə su verməsən, səmərəsiz olur.
Mücahid olmagilən, olsan, ol həbib kimi,
Mücahidi-həqq olan həqq yolunda sərsiz olur [9, s. 96].

Vətəndaşlarını “Qədəm bu dairəyə qoyma, qoysan, eşqilə qoy” çağırışı ilə hüququ və azadlığı uğrunda mübarizəyə çağıran şair cəsarətlə və açıq şəkildə qeyd edirdi ki, “Nə şahdan çarə var biz millətə yaran, nə məclisdən” [9, s. 96]. “Şahdan, millətin qanını zəli kimi soran əyan-əşrəfdən, dindən öz mənafeləri üçün istifadə edən ruhanilərdən Azərbaycan xalqına nicat yoxdur” fikrini əsərlərində tez-tez işlədən şair tam yəqinliklə bildirir ki, hər bir millət kimliyini başqa millətlərə isbatlamaq üçün, ilk öncə, azadlığını əldə etməli, onu sıxan, adi insani hüquqlardan məhrum edən istibdadın bünövrəsini sarsıtmaq üçün canından, qanından və malından keçməli, lakin haqqından, hüququndan, milli varlığından keçməməlidir.

Milli kimliyin inikası əksər şeirlərində bədii əksini tapan Səid Səlmasi Məşrutə hərəkatı dövründə inqilabi-ictimai fəaliyyəti, azadlıq mübarizəsində dönməz mövqeyi və heyrətamiz cəsarəti ilə seçilən qələm sahiblərindəndir. İyirmi iki illik qısa ömrünü millətinin milli şüuru və ictimai-siyasi fikrinin, özünüdərkinin oyanışına, dirçəliş və istiqlalına həsr edən şairin əsərlərində milli kimliyin əsas komponentlərindən biri olan vətən obrazı mühüm yer tutur. Səid Səlmasi Məşrutə inqilabı illərində irticaçı ünsürlərin milli-istiqlal mübarizəsinə mane olub pozuculuq fəaliyyətinə başlayanda Azərbaycan xalqının mübarizədən qalib çıxacağına əminliklə, Təbrizi, Azərbaycanı tutduğu haqq yolundan döndərmək istəyən irticaçı qüvvələri ittiham edərək “İrşad” qəzetində “Müstəbidlərə” adlı kəskin bir şeir çap etdirir. “Cənubi Azərbaycan inqilabçılarının qəhrəmanlıq, mərdlik ruhunu ustalıqla ifadə edən” [9, s.50], müstəbidləri ifşa, hürriyyət, azadlıq aşiqlərini tərənnüm edən, zalımdan intiqam almağa ədalət divanının qurulacağı inamı onun yaradıcılığının əsasını təşkil edir.

S.Səlmasinin İran Məclisinə üzv seçilmiş Cənubi azərbaycanlı vəkillərə ünvanladığı və nikbin təəssüratlar əsasında yazdığı “Təhəssür” şeiri milli kimlik mübarizəsinin inikası baxımından böyük maraq doğurur.

“Milli kimliyinin təhlükə altında qaldığını hiss edən müəllif ya üsyankar şəkildə onu daha kəskin formada üzə vurur, ya da özünüqoruma (həm fərdi, həm də milli) məqsədilə yaradıcılığında

ideyanın kodlarla ifadəsinə üstünlük verir” [10, s. 5] ki, bu halın da biz S.Səlmasinin əsərlərinin əsasını təşkil etdiyini görürük. Zülm və istibdada qarşı açıq protest kimi səslənən “Xəyali-mənfur” şeirində oxuyuruq:

Çəkil həyatımı tədhiş edən xəyal, çəkil!
Müdam nifrətə bais o hali-tənnazın.
Çəkil də, qılma mənə şuxi-məşribanə nigah,
Səbati-əzmimi qırmaz o çeşmi-tənnazin [11, s. 209].

Milli dilin və milli kimliyin ən mühüm daşıyıcısı olmasına baxmayaraq, “bir çox hallarda başqa dildə yazılan mətn öz milli kimliyi baxımından onu yaradan müəllifin milli kimliyinin daşıyıcısı olur” [10, s. 10]. Şeirləri ilə milli şüurun formalaşmasında xidmətləri olan, əsərlərini əsasən fars dilində yazan Seyid Əşrəfəddin Gilaninin (1872-1934) də bir sıra əsərlərinə məhz bu baxımdan yanaşmaq lazımdır. Rəştdə farsca çap etdirdiyi “Nəsimi-şimal” qəzetində günün aktual problemlərini müzakirə obyektinə çevirən, müasir ictimai-fəlsəfi, milli və bəşəri məsələləri qabartmaqla milli kimliyin təbliğinə şair-vətəndaş töhfəsini verən, “Məşrutə hərəkatı dövründə yazdığı əsərləri ictimai-siyasi satiranın və tənqidi realizmin gözəl nümunələri sayılan” [12, s. 57-58] S.Ə.Gilaninin həmin illərdəki yaradıcılığında araşdırdığımız problemlə bağlı məzmun və mündəricə baxımından ən seçkin şeirlərindən biri “Təraneyi-zəfər” əsəridir.

On iki bəndlik və hər bəndin sonunda “Milləti-Təbriz, xuda yarınız!” misrasının təkrarlandığı bu şeir “Nəsimi-şimal” qəzetində dərc olunandan az sonra böyük romantik və mütəfəkkir şair Məhəmməd Hadi (1879-1920) tərəfindən çox böyük ustalıqla Azərbaycan dilinə tərcümə edilərək “İttifaq” qəzetində nəşr olunmuşdur [Bax: “İttifaq” qəzeti, 26 fevral 1909-cu il, № 47].

Əgər H.R.Sərrafın məşhur müstəzadında “İslam milləti” deyilərək iranlılara, o cümlədən İranın vətəndaşları olan Cənubi azərbaycanlılara xitab olunurdusa, burada müraciət obyekti dəyişir. Məzmunundan göründüyü kimi, şeir Təbriz inqilabına həsr olunmuşdur. Bu şeirdə Tehrandan mitinqləri yatırmaq üçün Təbrizə göndərilmiş şah ordusunu darmadağın edən və Azərbaycan xalqının milli kimliyinin daşıyıcıları olan Səttarxanın və Bağırxanın ətrafında birləşən Təbriz camaatı alqışlanır, onlar vətən bağını laləzara döndərən, zülmün kökünü tar-mar edən, iranlıların adını bütün dünyada tanıdan qəhrəmanlar kimi vəsf olunur.

S.Ə.Gilani təbrizlilərə xitabən bildirir ki, təkcə gilanlılar deyil, bütün iranlılar, o cümlədən isfahanlılar da sizinlə fəxr edir, sizdən ibrət alaraq vətənlərini qorumaqdan ötrü hər cürə fədakarlığa hazırdırlar.

S.Ə.Gilani Məşrutə hərəkatı dövründə yazdığı əsərlərində fədailərin qanı və canı bahasına əldə olunmuş Konstitusiyanı və yeni təsis olunmuş Məclisi alqışlayır, bunlara millətin nicatı yolu, ümid yeri kimi baxırdı. Şairin “Qulaq asan kimdir”, “Ey vay, Vətən vay”, “Fatihə”, “Təsnif”, “Şəfa tapıb haçan vətən” və s. bu kimi şeirlərində həmin illərin mübariz əhval-ruhiyyəsi açıq cizgilərlə görünməkdədir.

Əgər “Təraneyi-zəfər” şeirində irticaya qarşı azadfikirlilik ideyaları uğrunda döyüşən “Milləti-Təbriz” – Təbriz camaatı, Azərbaycan xalqı əsas müraciət obyekti kimi götürülürdüsə, Məşrutə inqilabının məğlubiyyətindən sonra yazılan “Ey vay, Vətən vay” şeirində milli kimliyin əsas komponentlərindən olan Vətən bir obraz kimi götürülür və ona müraciət olunur.

XX əsrin ilk onillikləri dövrü ictimai-fəlsəfi fikirlərlə zəngin Cənubi Azərbaycan bədii yaradıcılığını təhlil edərkən akademik M.İbrahimov yazır: “Azad gələcəyə inam, zalımların əvvəl-axır məhv ediləcəyinə, qaranlığın çəkilib, səhərin açılacağına sarsılmaz inam şairlərin ürəyinə xalq və vətən məhəbbətilə dolmuşdur və bu məhəbbətlə də nəsildən-nəslə keçmişdir. Bəli, vətən eşqi, xalqa məhəbbət insanın fikrini hərəkətə gətirən, iradəsini möhkəmləndirən ecazkar qüvvədir və bu işıqsaçan qüvvə cənub şairlərini ilhamlandırmışdır” [4, s. 24-25]. Milli kimliyin bir çox komponentlərini özündə ehtiva edən bu sitatdan göründüyü kimi, gələcəyə inam, xalqa məhəbbət, satqın şahlara və onların əlaltılarına nifrət həmin illərin poeziyasının əsas mövzularından olmuşdur.

Pesyan Təbrizinin “Marş”, Behiştiyi-Təbrizinin “Vətən”, Cəfər Xamneinin “Vətənə”, “Ümid fəlsəfəsi”, Təqi Rüfət Təbrizinin “Qadınlara xitab”, “Ey iranlı cavan” və s. bu kimi əsərlərdə dövrün ictimai-fəlsəfi tərənnümü, milli kimliyin bədii inikası və milli kimlik uğrunda mübarizə çox böyük sənətkarlıqla öz həllini tapmışdır.

Şeirlərini farsca yazan, “Şeyx Məhəmməd Xiyabaninin yaratdığı Azərbaycan Demokratik Firqəsinin orqanı “Təcəddüd” qəzetinin görkəmli mühərrirlərindən biri olan” [8, s. 69] Cəfər Xamneyi XX əsrin ilk onilliklərində dünyada və İranda baş verən bir sıra qanlı, ictimai-siyasi hadisələri (Birinci Dünya müharibəsi, Rusiyada, İranda, Türkiyədə baş verən inqilablar və s.) nəzərdə tutaraq, yaşadığı əsri “Qanlı faciələr, vəhşət heykəli” [13, s. 69] adlandırsa da, Ş.M.Xiyabani hərəkatı zamanı artıq bir filosof kimi, Cənubi Azərbaycanda qanlı mənzərənin günbəgün dəyişdiyini, könül quşunun vətənin şəninə kədərli nəğmələr qoşduğunu, hələ də darda olan millətin vəziyyətini nəzərə alıb, vətəninin şir olsa da, qorxaq tülkü pəncəsində (burada “qorxaq tülkü” deyəndə İranın mərkəzi hakimiyyəti nəzərdə tutulur) qaldığına işarə edərək “Vətənə” adlı şeirində gözəl tərərənnüm etmişdir.

Bunu qeyd etmək düzgün olardı ki, yeni ictimai-fəlsəfi fikirlərin təbliği zamanı xalqın özünüdərkində, milli-bəşəri dəyərlərin sonrakı nəsillərə çatdırılmasında onun ədəbiyyatı mühüm rol oynayır. XX əsrin ilk onilliklərindəki şairlərin, o cümlədən Təqi Rüfətin poetik irsinə məhz bu prizmadan yanaşmaq lazımdır. Milli kimlik məsələsinin bədii təbliğinə Təqi Rüfət Təbrizinin milli adət-ənənələrimizi tərənnüm edən “Novruz və kəndli”, hər cür ali hörmətlərə layiq olsa da, dünyada bir gün görə bilməyən qadınlara ünvanlanan “Qadınlara xitab”, vətəni cəhalət içində olan gənclərə xitabən yazılan “Ey iranlı cavan” adlı ictimai xarakterli şeirlərində rast gəlirik.

Milli kimliyin inikası və milli kimlik uğrunda mübarizə baxımından “Ey iranlı cavan” şeiri daha xarakterikdir. Burada yaradılan “vətən oğlu”, “doğma vətən” obrazları bilavasitə problemin mahiyyəti ilə səsləşir. Azadlıq eşqi və gələcəyə inam hissi güclü olan şeirdə iranlı gəncə “Sabaha səsləyir hər an səni doğma vətənin”, – deyə müraciət edən şair ona şərəfli, şanlı tarixi keçmişini, ulu əcdadlarını xatırladaraq yazır:

Qalx ki, xoşbəxtlik özü qarşına gəlmiş gülərək,
Qalx, düzəlt qamətini, meydana çıx, Rüstəmtək!
Zal kimi, barmağını qoy kamana, sən oxu at,
Səsləyir, bax səni xoş günlərə indi bu həyat [14, s. 162].

Dövrün ictimai-fəlsəfi baxışları, milli dil, məfkurə, milli kimlik məsələləri poeziyasında mühüm yer tutan ən qüdrətli şairlərdən biri, heç şübhəsiz ki, Mirzə Əli Möcüz Şəbüstəridir. O, “mən xalqımı Sabir kimi oyadacağam” – deyə, C.Məmmədquluzadə (Molla Nəsrəddin) və M.Ə.Sabir ruhunda şeirlər yazmaqla, yeni həyat, insani hüquqlar və demokratiya uğrunda mübarizə aparan yazıçıların ön cərgələrində inam və cəsarətlə addımlamışdır.

Mövzu və forma müxtəlifliyinə baxmayaraq, Güney Azərbaycanda Sabir fəlsəfi məktəbini məharətlə, özünəməxsus tərzdə davam etdirən və özündən sonra bir məktəb yaradan M.Ə.Möcüz şeirlərinin demək olar ki, əksəriyyətində milli şüurun və milli kimliyin formalaşmasında müstəsna rol oynayan maarifi, mədəniyyəti və azadlıq ideyalarını təbliğ edir. O, elmsizlik, cəhalət və insanı əzən zəmanədən, onun dövlət sistemi və qanunlarından acı-acı şikayətlənirdi. Böyük maarifçi, lirik və satirik olan Möcüz gerilikdən və əsarətdən qurtulmağın çarələri sırasında elmə, maarifə yiyələnməyi ən ümdə vəzifələrdən biri hesab edirdi.

Millətin ictimai-siyasi və mənəvi inkişafında sənətin rolunu yüksək qiymətləndirən, bütün qüvvə və bacarığını onun xidmətinə yönəldən şairin qənaətinə görə, xalqa fayda gətirməyən, onun məişətinin qaranlıq cəhətlərinə işıq salmayan söz və söz sahibi olan qələm yiyəsinin olması olmamasından yaxşıdır. Filosof şairin fikrincə, qələm insan cəmiyyətində bütün islahatları, çevrilişləri hazırlayan qüdrətli silahdır. Sözün, qələmin qüdrətinə dərin inam bəsləyən Möcüz qarşısına belə bir müqəddəs vəzifə qoymuşdu: xalqı cəhalət yuxusundan oyatmaq! Şeirlərinin birində o yazırdı:

Xalqı bidar eyləmək mümkünmü xabı-cəhldən?
Eylərəm bidar, Möcüz, qorxmasam icadidən [7, s. 86].

“Dilim türki, sözüm sadə, özüm səhbayə dildadə*”*, – deyə özünün milli varlığı və dili ilə fəxr edən, qələm yoldaşlarına “Yaz anan təlim edən dildə!” şüarı ilə xitab edən Möcüz sənətini XX əsrin ilk onillikləri Güney Azərbaycan, o cümlədən “İran həyatının güzgüsü” adlandıranlar qətiyyən yanılmırlar. Tədqiqatların birində deyildiyi kimi: “M.Ə.Möcüz... ilk dəfə olaraq, poeziyada İran sosial həyatının panoramasını yaratmağa, tutqun, boz-bulanıq və fərəhsiz mənzərəsini bütün ziddiyyətləri ilə nəqş etməyə nail olmuşdur” [15, s. 77].

M.Ə.Möcüz dünyagörüşünün baş, əbədi və əzəli mövzusu vətən və millətin taleyi məsələsidir. O, şeirlərində dönə-dönə qeyd edir ki, vətən – vətəndaşlarının xoşbəxtlik və şərəf mənbəyidir. Vətəni olmayan millətin, yaxud istiqlaliyyəti əlindən alınan xalqın istiqlalı haqqında danışmaq boş xülya, mənasız bir şeydir. “Ey tirmə rəxti-xab içində quylanan dadaş, Getsə vətən, vətənlə gedər istirahət”, – deyə həməsrlərinə müraciət edən şairin vətən və millət haqqında düşüncələri bir çox əsərlərində, o cümlədən “Aşiqi-pərişan”, “Gəl başım üstə”, “Möcüzün səsi”, “Dedilər”, “Canlı cənazə”, “Yoxdur əlac söylədi cəhalətə”, “Olsun”, “Səni” və s. bu kimi satiralarında son dərəcə açıq, konkret və qabarıq şəkildə öz əksini tapmışdır.

M.Möcüzün dünyagörüşünə görə, xalqın rəzalətə düçar olmasının səbəbi mütiliyin törətdiyi istibdad, qayğısızlıq və bundan doğan səfalətdir. “Əyani-vətən”in xəyanəti ucbatından vətən düşmən tapdağına çevrilmiş, demokratik idarəçilik prinsiplərinin yoxluğu, şah və məmurlarının hər cür nəzarətdən kənarda qalıb hakimi-mütləq olmaları ölkəni inkişafdan saxlamış, geniş xalq kütləsi aclığa, üzücü əzab-əziyyətə məhkum edilmişdir.

M.Möcüzün dünyagörüşünün əsas tərənnümü olan satiralarında cəhaləti xalq arasında yayan din xadimlərinin, ruhanilərin ifşası da mühüm yer tutur. Şəxsi müşahidələri nəticəsində şair belə bir nəticəyə gəlmişdir ki, əhalini istismar etməkdə hakim dairələrlə ittifaq bağlayan ruhanilər şəxsi mənafeləri naminə, yeri gəldikdə, müqəddəs şəriət qanunlarını belə pozmaqdan çəkinmirlər. Şairin qənaətinə görə, xalqı elm, təhsil əvəzinə boş, mövhumi anlayışlarla aldatmağı özlərinə peşə etmiş din xadimləri üçün vətənə, xalqa, millətə xəyanət etmək adi hala çevrilmişdir. “O gün ki oldu”, “Axır ki, ağlat milləti”, “Məscidə” və s. əsərlərində riyakar din xadimləri kəskin rənglərlə ifşa olunur.

İlk şeirlərini “Mirzə Gülzar” təxəllüsü ilə yazan, Təbrizdə Məşrutə inqilabı başlanan ərəfədə bir çox vətənpərvərlər kimi, fədailərə qoşularaq mücahidlərlə birgə mübarizə meydanına atılan Bayraməli Abbaszadənin şeirlərinin milli kimliyin formalaşmasındakı rolunu danmaq olmaz.

“Molla Nəsrəddin” fəlsəfi-ədəbi məktəbinin tanınmış simalarından olan, şeirlərini “Molla Nəsrəddin” və onun təsiri ilə çıxan satirik jurnallarda çap etdirən B.Abbaszadə, əsasən, Şimali Azərbaycanda yaşayıb-yaratsa da, yaradıcılığında Güney və İran mövzusu mühüm yer tutur ki, bu da səbəbsiz deyil. Çünki o, Güney Azərbaycanı milli-azadlıq hərəkatının bilavasitə iştirakçısı olmuş, xalqın səadəti uğrunda şəhid olmağı özünün idealı elan etmişdi. Fikrimizin təsdiqi üçün “Həllac” adlı şeirin bir neçə misrasına diqqət edək:

Mən ruzi-əzəldən demişəm: – Əncümənəm mən,
Gər döysələr, öldürsələr də, inciməzəm mən.
Söz verməsəm əğyarə, məgər mötəmənəm mən?
Millət yolunda ölməyə hazır kəfənəm mən [16, s. 101].

Vətən, yurd həsrəti, güneylilərin acınacaqlı taleyini düşünmək, onların tapdanmış hüquqlarını cəsarətlə müdafiə etmək M.Möcüzün yaradıcılığında olduğu kimi, B.Abbaszadə yaradıcılığının da baş, aparıcı xəttini təşkil edir. “Məşrutə”, “İranlıların naləsi”, “İranlı olmasaydı”, “Keçər gedər”, “Gözün aydın”, “Hər yana baxıram” və s. bu kimi şeirlərdə xalqın, ölkənin ümumi mədəni-siyasi vəziyyəti real şəkildə satirik və yumoristik boyalarla əks etdirilir.

Vətən, ailə-uşaq həsrəti ilə qəlbi alışıb-yanan, diyarbədiyar gəzib hamballıq, əkinçilik, biçinçilik, çobanlıq, fəhləlik edən Güney zəhmətkeşinin arzu və istəkləri, acı fəryadları B.Abbaszadə satirasının başlıca mövzuları sırasında özünə yer alır. Onun “satirası mövzudan, mətləbdən, ideyadan asılı olaraq, bəzən gülüşdən göz yaşına, acı qəhqəhələrdən inilti və sızıltıya keçir” [17, s. 228].

İctimai və siyasi baxışları baxımından şair dönə-dönə sual edir ki, milləti və məmləkəti bu hala salan kimlərdir? Müxtəlif münasibətlərlə sualın cavabı təxminən eynidir: ümmətin başına noxta vurub uçuruma sürükləyənlər, şahlar, xanlar, mollalar, batini kafir, zahiri abid olan üləmalar!

B.Abbaszadə ictimai satiraları ilə vətənin, millətin halına ağlasa da, onda gələcəyə, xalqının mübarizə əzminə böyük inamı var. O, əmindir ki, Səttarxan və Bağırxanın varisləri azadlıq uğrunda mübarizədə son məqsədə çatmaq üçün yenə silaha sarılacaq, istismar dünyasının daşını daş üstə qoymayacaqlar. Şərqin əzilən kütlələrini mübarizəyə çağıran təsirli şeirləri ilə onların azadlıq eşqini alovlandırmağa çalışır.

Yeni ictimai görüşlərin, milli şüur və milli kimliyin daşıyıcıları olan yeni insan tərbiyəsi, maarif və mədəniyyətin təbliği C.Ə.Bağçaban, M.Səfvət, M.Eşqi və XX əsrin əvvəllərində yaradıcılığa

başlayan, demokratik poeziyanın inkişafında müəyyən xidmətləri olan filosof şairlərdən biri olan İrəc Mirzənin (1874-1925) yaradıcılığında İran, xüsusən də Güney Azərbaycan qadınlarının acınacaqlı taleyinin təsviri və bunlardan çıxış yolu məsələsi mühüm yer tutur.

20-ci illərin əvvəllərində dövrünün müasir istimai-fəlsəfi baxışlarının təsiri altında Cənubi Azərbaycanda genişlənən milli-azadlıq hərəkatı bədii ədəbiyyatda yeni "mübariz insan" obrazlarının yaradılması ilə də seçilir ki, bu illərdə ədəbiyyatda Şeyx Məhəmməd Xiyabani, Heydər Əmioğlu, Məhəmməd Tağıxan və s. bu kimi şəxslər barədə dəyərli əsərlər meydana gəlir. Xorasan üsyanının başçısı olan polkovnik Məhəmməd Tağıxan barədə dəyərli bir şeir yazan İrəc Mirzə onu cəsur vətənpərvər, misilsiz qəhrəman və Vətənə sədaqətli bir şəxs kimi xarakterizə edir.

**Nəticə / *Conclusion***

Tarixi faktlardan da bəlli olduğu kimi, XX əsr Cənubi Azərbaycan ictimai-fəlsəfi fikir tarixində çox keşməkeşli bir dövr olmuşdur. Əsrin 70-ci illərinə qədər İranda baş vermiş bütün dünya əhəmiyyətli hadisələr, inqilab və üsyanlar, demək olar ki, başlanğıcını Azərbaycandan götürmüş, ictimai-siyasi həyatda olduğu kimi, bədii ədəbiyyatda da baş verən yeniləşmələr məhz azərbaycanlı müəlliflərin adı ilə bağlı olmuşdur. Tədqiqat nəticəsində belə bir qənaətə gəlmək olur ki, ictimai-siyasi mühitdə baş verənlər, azadlıq və istiqlaliyyət uğrunda genişlənən mübarizə və dirənişlər ədəbiyyata da təsirini göstərmiş, məhz bunların sayəsində ədəbiyyatda milli ruh güclənmiş, milli kimlik məsələsi poeziyanın baş mövzusuna çevrilməyə başlamışdır. Bu dövrdə formalaşan ictimai-fəlsəfi fikir özündən sonrakı proseslərə də təsirsiz qalmamış, milli şüurun təşəkkülündə mühüm rol oynamışdır.

## İstifadə olunmuş ədəbiyyat / *References*


1. Mustafayev, V. Cənubi azərbaycanlıların milli şüuru haqqında bəzi qeydlər (Cənubi Azərbaycan tarixi məsələləri) // – Bakı: Elm, –1991. – s. 175-195.
2. "Yoldaş" jurnalı // Tehran: – 1979, № 8, – s. 94.
3. Müciri, C. Məşrutə dövrü ədəbiyyatı (1901-1917). (XX əsr Cənubi Azərbaycan ədəbiyyatında demokratik ideyalar: 1900-1985-ci illər). – Bakı: Elm, – 1900. – s.39-61.
4. İbrahimov, M. Dövrün müxtəsər ictimai-ədəbi mənzərəsi (XX əsr Cənubi Azərbaycan ədəbiyyatında demokratik ideyalar: 1900-1985-ci illər). – Bakı: Elm, – 1900. – s.3-38.
5. Sərraf, H. R. Divan. – Təbriz: 1331 (1912), – s. 75.
6. Əhməd, V. Cənubi Azərbaycan poeziyası (1950-2010) // V.Əhməd – Bakı: MBM, – 2014. – 420 s.
7. Cənubi Azərbaycan ədəbiyyatı tarixi: XX əsr // II c. – Bakı: Qanun, –2013. – 680s.
8. Cənubi Azərbaycan ədəbiyyatı antologiyası // II c. – Bakı: Elm, –1983. – 580 s.
9. Müciri, C. Məşrutə dövrü ədəbiyyatı (1901-1917). (XX əsr Cənubi Azərbaycan ədəbiyyatında demokratik ideyalar: 1900-1985-ci illər). – Bakı: Elm, – 1900. – s.39-61.
10. Məmməd, T. Milli kimlik və bədii mətn // T.Məmməd – Bakı: Elm və təhsil, – 2020. – 144 s.
11. Səlmasi, S. Xəyali-mənfur // "Füyuzat" jurnalı – 1907, 23 iyun, № 20, – s. 209.
12. Hüseynov, B. XX əsr fars şeirində ənənə və novatorluq // B.Hüseynov – Bakı: Elm, –1975. –s. 57-58.
13. Xamneyi, C. İyirminci əsr. // CAƏA, II c. – Bakı: Elm, – 1983. – s. 69.
14. Təbrizi, T. R. Bir iranlı cavan // CAƏA, II c. – Bakı: Elm, – 1983. – s. 163.
15. Ələsgərova, S. Mirzə Əli Möcüz Şəbüstəri // S.Ələsgərova – Bakı: ADPU, –2002. –182 s.
16. Abbaszadə, B. Həllac // B. Abbaszadə CAƏA. II c. – Bakı: Elm, – c. 2. –1983. – s. 101.
17. Mir, C. Hüseynov, F. XX əsr Azərbaycan ədəbiyyatı // – Bakı: Maarif, – 1982.– s. 228.

## РАЗВИТИЕ ОБЩЕСТВЕННО-ФИЛОСОФСКОЙ МЫСЛИ В ПЕРИОД МАШРУТСКОЙ РЕВОЛЮЦИИ И ДВИЖЕНИЯ Ш.М.ХИЯБАНИ В ЮЖНОМ АЗЕРБАЙДЖАНЕ

**Ниджат Мамедов**

**Резюме.** В статье раскрывается проблема начала XX века, как особого этапа в истории философской и общественно-политической мысли Южного Азербайджана. XX век был одним из самых бурных периодов в истории народа Южного Азербайджана. Произошедшие в тот период в Иране события мирового значения и все освободительные движения, зародились в Южном Азербайджане, который входил в состав государства.

**Цель:** изучение развития общественно-философской мысли в Южном Азербайджане в период Машрутской революции и движения Ш.М.Хиябани.

**Методология:** системный подход, исторический метод.

**Научная новизна:** исследование влияния Машрутской революции и движения Ш.М.Хиябани на развитие общественно-философской мысли в Южном Азербайджане.

**Ключевые слова:** философский, общественно-политический, Южный Азербайджан, Машрута, мысль, национально-духовный, самосознание, демократическая

## DEVELOPMENT OF SOCIAL AND PHILOSOPHICAL THOUGHT DURING THE PERIOD OF THE MASHRUTAH REVOLUTION AND THE MOVEMENT OF SHEIKH M. KHIYABANI IN SOUTHERN AZERBAIJAN

**Nijat Mammadov**

**Abstract.** This article, the beginning of the twentieth century has been put on the agenda as a problem of a distinctive stage in the philosophical history and socio-political thought of Southern Azerbaijan. The fact that the twentieth century was one of the most turbulent periods in the history of Southern Azerbaijan has been explored. All the events of world significance that took place in this region and all the liberation movements in Iran originated in Southern Azerbaijan, which is part of this state.

**Purpose:** Study of the development of social and philosophical thought in Southern Azerbaijan during the period of the Mashrutah revolution and the movement of Sheikh M. Khiyabani.

**Methodology:** System approach, historical method.

**Scientific novelty:** Study of the influence of the Mashrutah revolution and the movement of Sheikh M. Khiyabani on the development of social and philosophical thought in Southern Azerbaijan.

**Keywords:** Philosophical, socio-political, Southern Azerbaijan, Mashrutah, Thought, national-spiritual, self-awareness, democratic.

**Rəyçi: f.f.d., dos. Rəşad Əsgərov**